# Ceyhun BAYRAMOV: "İran azad olunmuş ərazilərdə reallaşdırılan layihələrlə bağlı marağını ifadə edib"



"Noyabrın 28-də Aşqabadda keçirilmiş görüş hazırkı dövrdə ölkələrimiz arasında münasibətlərdə xüsusi önəm daşıyır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında əməkdaşlığa dair müqavilələr imzalanıb. Bugünkü görüşdə ikitərəfli əlaqələrin inkişafı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq və digər mövzularda müzakirələr apardıq".

Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian ilə keçirilən görüşdən sonra təşkil olunan brifinqdə deyib.

Nazir bildirib ki, Azərbaycan ilə İran arasında iqtisadi ticarət əlaqəsi böyük önəm kəsb edir. 2021-ci ilin 10 ayı ərzində ölkələrimiz arasında iqtisadi ticarət sahəsində artım qeydə alınıb.

Ölkələrimizin həyata keçirdikləri birgə layihələrdən söz açan nazir "Xudafərin" və "Qız qalası", "Ordubad" su elektrik stansiyalarının inşasını, Astaraçay üzərində körpünün tikilməsini, İran-Azərbaycan-Rusiya dəhlizinin daha da təkmilləşdirilməsini, Neftçalada birgə avtomobil istehsalı zavodunun işə salınmasını misal gətirib.

C.Bayramov qeyd edib ki, İranda yeni hökumət formalaşdıqdan sonrakı bir neçə ay ərzində bir sıra yeni layihələr barədə konkret icraatlar var. Aşqabadda Türkmənistan qazının İran ərazisindən keçməsi barədə müqavilə buna nümunədir. Ən önəmlisi isə yeni layihələrlə bağlı yol xəritəsi üzərində iş gedir.

❖ ❖ ❖

"Qırx dörd günlük müharibədə İranın məsələnin ərazi bütövlüyü daxilində, işğala son qoyulması ilə həllinə dair mövqeyi Azərbaycan tərəfindən dəstəklənib".

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian ilə keçirilən görüşdən sonra təşkil olunan brifinqdə söyləyib.

Nazir diqqətə çatdırıb ki, artıq regionda yeni iqtisadi artım imkanları var. Bu şərait bütün bölgə ölkələri üçün faydalı olacaq.

Ceyhun Bayramov xatırladıb ki, uzun illər ərzində işğal altında olmuş Ermənistanla sərhəd Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi ilə bərpa olunub.

"Münaqişədən qısa müddət keçməsinə baxmayaraq, regionda birgə iştirak edərək 3+3 platformasını yarada bilərik. İran və Rusiya bu təşəbbüsə ən tez dəstək verən ölkələrdir. Yaxın gələcəkdə bu prosesin müsbət davamını görəcəyik", - deyən Azərbaycanın XİN rəhbəri vurğulayıb ki, işğaldan azad edilən ərazilərin yenidən qurulması və bərpası ən vacib məsələdir. İran yaxın və dost ölkə kimi azad olunmuş ərazilərdə reallaşdırılan layihələrə marağını ifadə edib.

***AZƏRTAC***

Azərbaycan.- 2021.-23 dekabr.- S.13.